| FOMINOV CONSULTING | # KEYFİYYƏTİ İDARƏETMƏ SİYASƏTİ |
|---|---|

2014-cü ildə təsis edilmiş "FOMİNOV CONSULTİNG" MMC 14.05.2025-ci il tarixli 33 nömrəli qərar və 506 nömrəli lisenziya əsasında Azərbaycan Respublikasında fəaliyyət göstərən sistem inteqrasiyası və informasiya texnologiyaları sahəsində ixtisaslaşmış şirkətdir. Şirkət rəqəmsal transformasiya, məlumat mərkəzi həlləri, kibertəhlükəsizlik, bulud texnologiyaları, biznesin davamlılığı, texniki dəstək və idarə olunan xidmətlər üzrə kompleks həllər təqdim edir.

Şirkətin fəaliyyətinin əsas prinsipləri müştəri ehtiyaclarına fərdi yanaşma, innovativ texnologiyaların effektiv tətbiqi, informasiya təhlükəsizliyinin təmin edilməsi və davamlı inkişafın dəstəklənməsidir.

"FOMİNOV CONSULTİNG" MMC rəhbərlik, əməkdaşlar və subpodratçılar daxil olmaqla təşkilatın bütün səviyyələrində keyfiyyətin idarə olunması, informasiya təhlükəsizliyinin təmin edilməsi və davamlı təkmilləşdirmə prinsiplərinə sadiqliyini bəyan edir. Müştəri məmnunluğunun təmin edilməsi, informasiya aktivlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının qorunması şirkətin əsas prioritetləri sırasındadır.

Şirkət fəaliyyətinə təsir göstərə biləcək risk və imkanları sistemli şəkildə müəyyən edir, qiymətləndirir və idarə edir. Risk əsaslı yanaşmanın tətbiqi təşkilatın dayanıqlılığının artırılmasına, etibarlı biznes münasibətlərinin qurulmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə və informasiya təhlükəsizliyinin təmin olunmasına xidmət edir. İnteqrəolunmuş İdarəetmə Sistemi mütəmadi olaraq nəzərdən keçirilir, ölçülür və təkmilləşdirilir.

Şirkət KİS (Keyfiyyət İdarəetmə Sistemi) çərçivəsində fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərinə, ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemi standartının tələblərinə, eləcə də digər tətbiq olunan normativ və müqavilə öhdəliklərinə uyğun şəkildə həyata keçirir.

**ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemi (KİS) çərçivəsində şirkət:**

- Təşkilatın məqsəd və kontekstinə uyğun öhdəlik və strateji istiqamətin dəstəklənməsi;
- Keyfiyyət siyasəti məqsədlərinin müəyyən edilməsi və izlənməsi;
- Müvafiq tələblərə cavab vermək öhdəliyi;
- İdarəetmə sisteminin effektivliyini və davamlı təkmilləşdirilməsini təmin etməyi öhdəsinə götürür.

Direktor: Aytən Mustafayeva

İmza, tarix: 10.08.2026

MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT AZƏRBAYCAN RESPUBLİKASI LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC FOMINOV CONSULTING